# İMANOV SAMİD GÜLAĞA OĞLU



Samid Gülağa oğlu İmanov 1981-ci ilin 14 oktyabr tarixində Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olmuşdur. 1998-ci ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olan İmanov 2003-cü ildə həmin hərbi məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. Samid İmanov özünü peşəkar hərbçi kimi formalaşdırmaq üçün durmadan çalışmış və Türkiyədə, Pakistanda, Rumıniyada bir sıra hərbi təlimlərə və kurslara qatılmışdır. Mayor Samid İmanov 2016-cı ilin aprel ayının əvvəlində sonuncu döyüşə qatıldı. Aprelin 3-dən 4-nə ötən gecə döyüş zamanı mayor İmanov neytral ərazidə ayağından və çiynindən qəlpə yarası aldı. Əsgərlər onu döyüş meydanından aparmaq istəsə də, Samid İmanov onun əvəzinə yaralı gizirin çıxarılmasını əmr etdi. Yaralı giziri döyüş meydanından çıxaran əsgərlər Samid İmanovu aparmaq üçün yenidən döyüş meydanına qayıtdı, amma mayor İmanov artıq orada deyildi. Samid İmanov əsgərləri ərazidən uzaqlaşandan sonra erməni tərəfə əsir düşməmək üçün oradan uzaqlaşdı. Bütün mərmiləri qurtaran mayor İmanov düşmənə erməni tərəfinə sağ düşməmək üçün əlində qumbara saxlamışdı. Səhərə qədər əsgərlər onu tapmadığı üçün isə mayor Samid İmanov qan axma nəticəsində qəhrəmancasına şəhid oldu. Aprelin 8-i Samid İmanovun nəşi neytral ərazidən götürüldü və doğma Neftçala rayonuna aparıldı. Aprelin 9-u isə mayor Samid İmanov anadan olduğu Neftçala şəhərinin Şəhidlər Xiyabanında son mənzilə yola salındı. 2016-cı ilin 19 aprelində Azərbaycan Respublikası Prezidenti və Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandası İlham Əliyevin 1966 nömrəli sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə mayor Samid Gülağa oğlu İmanov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü. Neftçala şəhərində küçələrdən biri mayor Samid İmanovun adını daşıyır. Azərbaycan Respublikasının Nazirlər 22 aprel 2019-cu il tarixli 186 nömrəli qərarı ilə Neftçala şəhər 1 nömrəli tam orta məktəbə Azərbaycanın Milli Qəhrəmanı Samid İmanovun adı verilib. Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə ekranlaşdırılan "Samidə məktub" sənədli film Milli Qəhrəmanımızın xatirəsinə həsr olunub.